## Ümumi pedaqogika kafedrasının tarixi

Ali təhsil sistemində elmi-pedaqoji kadr hazırlığında Azərbaycan Dövlət Pedaqoji Universiteti şərəfli yol keçmişdir. Onun bu şərəf payında Ümumi pedaqogika kafedrasının xüsusi yeri var.

1926/1927-ci tədris ilində ADU-nun Pedaqoji fakültəsində fəaliyyətə başlayan çoxsaylı kafedralar sırasında pedaqogika kafedrası da (pedaqogika və pedaqogika tarixi) olmuşdur. Pedaqogika kafedrası müstəqil kafedra kimi 1930-cu ildə - Azərbaycan Pedaqoji İnstitutu yeidən təşkil edilərkən yaradılmışdır. Bir professor (B.B.Komarovski), dörd dosent (Əşrəf Hacıyev, Mikayıl Rəhimli, Əhməd Kərəzi, Zəkuzadə), yeddi assitent (Mehdi Mehdizadə, Əhməd Seyidov, Əbdülkərim Əfəndiyev, İbrahim Əfəndiyev, Qənbər Əsgərov, Rəcəb Əfəndiyev, Gülrux Qədimbəyova) və bir laborantla (Məmmədsəlim Tahirli) fəaliyyətə başlayan pedaqogika kafedrası ildən-ilə inkişaf etmiş, respublikada pedaqoji biliyin mərkəzinə çevrilmişdir. Geniş və hərtərəfli fəaliyyəti ilə fərqlənən kafedraya ilk vaxtlar dos.M.Rəhimli (1931-1937), sonralar dos.N.Asatur (1927-1942), prof.Ə.Seyidov (1943-1950 və 1956-1974), prof.M.Mehdizadə (1950-1951), prof.M.Muradxanov (1951-1956), 1974-1977-ci illərdə professorlar B.Əhmədov, N.Kazımov, S.Şəfiyev rəhbərlik etmişdir. 1933-cü ildə V.İ.Lenin adına APİ-də aspirantura şöbəsi açılmışdı və aspirantlardan 12 nəfəri pedaqogika ixtisasi üzrə idi.

XX əsrin 30-40-cı illərində pedaqogika elmi sahəsində çalışmış tanınmış pedaqoq və psixoloqlar öz elmi-pedaqoji fəaliyyətlərini bu kafedrada davam etdirmişlər. İsmayıl Qaryağdı, Mövsüm İsmayılzadə, N.Prunis (1932), Əli İsgəndərzadə (1933), Saleh Xəlilov (1934), Seyid Əliyev (1934), Dilrubə Mustafayeva, Zümrüd Axundova (1936), Məmməd Əlizadə (1936), İsrafil Hacıyev (1937), Surxay Hacıyev (1939), Əmir Tağıyev (1940) və başqalarının fəaliyyəti kafedra ilə daha sıx bağlı olmuşdur.

Böyük Vətən Müharibəsi zamanı (1941) gənc müəllim kadrlarının hazırlanması müvəqqəti olaraq ADU-da mərkəzləşdi. 1943-cü ildən APİ ADU-dan ayrıldığından pedaqogika kafedrası yenidən yaradıldı. O vaxt artıq dosent vəzifəsinə layiq görülmüş Əhməd Seyidov kafedra müdiri təyin edildi.

1947-ci ildə pedaqogika kafedrasının müdiri Ə.Seyidovun "XIX əsrdə Azərbaycanda pedaqoji fikrin əsas nümayəndələri" mövzusunda doktorluq dissertasiyası müdafiə etməsi pedaqogika elmində yeni hadisyə çevrildi.İlk milli pedaqogika elmlər doktoru meydana gəldi.

Ötən əsrin 50-ci illərində pedaqogika kafedrası elmi-pedaqoji kadr hazırlığı sahəsində fəaliyyətini genişləndirdi, tərkibi kəmiyyət və keyfiyyətcə yüksəldi. Həmin illərdə S.Babayeva (1951), H.Hacıyev (1952), Ə.Tağıyev (1952), T.Əfəndiyev (1954), H.Əhmədov, Ə.Yaqubi (1958), V.Mustafazadə, Ə.Hüseynova (1959) və başqaları pedaqogika kafedrasında elmi-pedaqoji fəaliyyətə başladılar. Həmin dövrdə kafedranın gənc kadrlarından N.Mustafayeva (1949), A.Kərimov (1953), T.Əfəndiyev (1954), İ.Vəlixanlı, B.Axundov (1955), N.Kazımov, M.Kazımov (1957), H.Əhmədov (1958), M.Məmmədov, Q.Məmmədov (1959), eyni zamanda Ə.Tağıyev (1954), Ə.Yaqubi (1955), V.Mustafazadə (1955) pedaqogika sahəsində tədqiqatlarını başa çatdıraraq namizədlik dissertasiyaları müdafiə etdilər.

Ümumi pedaqogika kafedrasının dosenti M.Mehdizadənin Moskvada “Azərbaycanda sovet məktəbinin inkişafına dair oçerklər” mövzusunda doktorluq dissertasiyası müdafiə etməsi (1957) elmi-pedaqoji kadr hazırlığında mühüm rol oynadı. O, ilk və son azərbaycanlı idi ki, 1967-ci ildə SSRİ PEA-nın həqiqi üzvü seçilmişdir.

1969-cu ildə Azərbaycan KP MK-nın avqust plenumunda Ulu öndər Heydər Əliyevin tarixi məruzəsində irəli sürülən tələblərə uyğun keçən əsrin 60-70-ci illərində elmi və elmi-pedaqoji kadrların hazırlanmasının müxtəlif problemləri ilə əlaqədar ölkədə mühüm qərarlar qəbul edilir. Burada aspirantura sistemində elmi kadrların hazırlanmasına dissertasiya işlərinin müdafiəsinə tələblərin artırılması ön plana çəkilir.

Pedaqogika kafedrasında da bu tələblərə əməl edilmiş, aspiranturaya müsabiqə yolu ilə, ali məktəbləri fərqlənmə diplomu ilə başa vurmuş, tədqiqatçılıq bacarığına malik elmi eridusiyalı gənclərin qəbul edilməsinə üstünlük verilmişdir. Ümumi pedaqogika kafedrası üzrə aspirantura hazırlığı keçən Y.Talıbov (1962), İ.Musayev, Ə.Məmmədov, P.Saleh (1964), Ə.Qədimbəyova, Ə.Əhmədov, A.İsmayılov, S.Məcidov, A.Hüseynzadə, S.Şəfiyev, B.Abdulayev, S.Axundov (1965), H.Novruzov, N.Rüstəmova (1966) və başqaları müdafiə edərək pedaqoji elmlər namizədi alimlik dərəcəsi almışlar.

1960-80-ci illərdə Ümumi pedaqogika kafedrası yeni elmi qüvvələrlə gücləndirildi, onun potensialı yüksəldildi. 1964-1965-ci tədris ilində kafedrada 12 nəfər (1 professor, 5 dosent, 6 b/m) işlədiyi halda 1970-ci illərdə əməkdaşların sayı xeyli artdı. Bu illərdə S.Pəncəli, İ.Musayev, B.Abdullayev, A.İsmayılov, X.Mehdizadə, H.Novruzov, Ə.Əhmədov, Y.Talıbov, S.Quluyev, M.Babayev, B.Bəşirov, Z.Pulatova, S.İbrahimova, S.Nəbiyev, N.Ağayeva, Ş.Səmədova, Y.Atakişiyev, H.Əhmədov, İ.İsayev və b. pedaqogika kafedrasında müəllimlik fəaliyyətinə başladılar. Bu da 70-ci illərdə respublikada pedaqogika elminin inkişafına kömək etməklə yanaşı yüksək ixtisaslı kadrların hazırlanmasına şərait yaratdı. Nəticədə kafedra üzrə aspirantura hazırlığı keçmiş S.Quluyev (1968), Ə.Hüseynova (1969), Ə.Ağayev (1970), S.Nəbiyev (1971), M.Babayev (1972), M.Həsənov, X.Fətəliyev, Ə.Cəlilov, A.Eminov (1973), İ.İsayev (19740, S.Orucov (1975) və b. namizədlik dissertasiyalarını müdafiə etdilər.

70-ci illər Ümumi pedaqogika kafedrasının elmi həyatında doktorluq dissertasiyalarının müdafiəsi ilə fərqlənir. Buna misal H.Əhmədov (1972), A.Kərimov (1973), Y.Talıbovun (1975) doktorluq dissertasiyalarının müdafiəsini göstərmək olar.

1970-1980-ci illərdə Ümumi pedaqogika kafedrasının nəzdində ictimai əsaslarla “Ali məktəb pedaqogikası” və 1975-2000-ci illərdə xüsusi ştat vahidi olan “Şagirdlərin peşəyönümü” elmi-tədqiqat laboratoriyaları fəaliyyət göstərmişdir.

1980-90-cı illər Ümumi pedaqogika kafedrası öz əməkdaşlarının elmi səviyyəsinin daha da yüksəldilməsi qayğısına qalması ilə fərqlənir.

SSRİ NS yanında AAK-nın 5 avqust 1986-cı il tarixli 398 saylı əmrilə APİ-də yaradılan, 2 mart 1989-cu il 45 saylı əmrilə yenidən təsdiq olunan pedaqoji elmlər üzrə ixtisaslaşdırılmış Dissertasiya şurasında (sədr: Azərbaycan EA-nın müxbir üzvü, professor A.Qurbanov – rektor, Elmi katib: dos. İ.İsayev kafedranın əməkdaşı) həmin illərdə müdafiə olunan 92 dissertasiyanın 55-i pedaqogikanın nəzəriyyəsi və tarixinə aid idi ki, bunların hamısı Ümumi pedaqogika kafedrasında müzakirə edilərək müdafiəyə buraxılmışdır. Müdafiə edənlərdən M.İlyasov, Q.Məmmədov, S.Qurbanova, V.Zərbəliyev, B.Nəbiyev, X.Mehdizadə, H.Bayramov, S.Orucova, F.Rüstəmov, Ə.Məhərrəmov, N.Ağabəyova, K.Məcidov, Ə.Sarıyev məhz Ümumi pedaqogika kafedrasının əməkdaşları idi.

1978-2013-cü illərdə kafedraya SSRİ PEA-nın müxbir üzvü, Beynəlxalq Pedaqoji Elmlər Akademiyasının həqiqi üzvü, Rusiya Təhsil Akademiyasının xarici üzvü, əməkdar ali məktəb işçisi, pedaqoji elmlər doktoru professor M.Əhmədov rəhbərlik etmişdir.

80-ci illərdən sonra pedaqogika nəzəriyyəsi və tarixi ixtisası üzrə elmi-pedaqoji kadr hazırlığında professor Hüseyn Əhmədovun diqqətəlayiq fəaliyyəti olmuşdur. Həmin illər kafedranın elmi potensialı xeyli yüksəlmiş, kafedra üzvlərindən Fərrux Rüstəmov (2001) (hazırda pedaqoji fakültənin dekanı), Müseyib İlyasov (2014, hazırda məktəbəqədər təhsilin pedaqogika və psixologiyası fakültəsində kafedra müdiri) doktorluq dissertasiyalarını müdafiə etmişdir. Sonrakı illərdə F.Rüstəmov əməkdar elm xadimi fəxri adına, kafedranın hazırkı rəhbəri İramin İsayev isə professor elmi adına layiq görülmüş (2009) və AAK tərəfindən təsdiq olunmuşdur.

Ümumi pedaqogika kafedrasının yetirmələrinin coğrafiyası çox genişdir. Belə ki, bu kafedra Zaqafqaziya, Orta Asiya respublikaları və Şimali Qafqaz üçün elmi-pedaqoji kadr hazırlığında mühüm elmi mərkəz rolu oynamışdır.

Ötən illər ərzində Ümumi pedaqogika kafedrasının əməkdaşlarının fəaliyyəti məqsədyönlü olmuş, onlar müəllimliklə yanaşı dövrün tələblərinə uyğun elmi-tədqiqat işləri aparmış, metodiki xarakterli monoqrafiya, kitab və kitabçalar, elmi məqalələr hazırlamış, proqramlar, dərsliklər tərtib etmişlər.

Pedaqogika tarixindən ilk dərs vəsaitini pedaqogika kafedrasının dosenti Saleh Xəlilov hazırlamışdır. Sonra Türkiyədən dəvət olunmuş Xəlil Fikrət tərəfindən "Tərbiyə və tədris tarixi" adlı iki hissədən ibarət dərs vəsaiti 1924 və 1926-cı illərdə çap olunmuşdur. 1941, 1942, 1958-ci illərdə M.Mehdizadə, S.Xəlilov, D.Mustafayeva tərəfindən 2 hissədən ibarət "Pedaqogika" dərs vəsaiti çap olunmuş, prof.M.Muradxanovun rəhbərliyi altında 1964-cü ildə "Pedaqogika" dərs vəsaiti 1958-1959-cu illərdə Ə.Seyidov və Ə.Tağıyev tərəfindən "Pedaqogika tarixi", 1969-cu ildə Ə.Seyidovun "Pedaqogika tarixi" kitabları çap olunmuşdur.

1990-2015-ci illərdə yeni tələblərə uyğun dərslik və dərs vəsaitlərinin tərtibi davam etdirilmişdir. H.Əhmədovun "Pedaqogika tarixi kursundan mühazirələr" (1987), B.Əhmədovun "Pedaqogikadan mühazirə konspektləri", H.Əhmədovun "Из истории педагогики Азербайджана" (I-II-III hissə; I hissə İramin İsayevlə birlikdə) (1991, 1993, 1995), "Azərbaycanda məktəb və pedaqoji fikir tarixi" (Azərbaycan və rus dillərində - 2001), 2014-cü ildə tam təkmilləşdirilmiş formada İ.Musayevin "Pedaqogikanın ümumi əsasları" (1992), B.Abdullayevin "Didaktika" (1997), İ.İsayevin "Pedaqogika" (1993, şərikli, 2003, 2006) kitabları çap olunmuşdur.

Ə.Paşayev, F.Rüstəmovun "Pedaqogika" (2002), F.Rüstəmovun "Pedaqogika tarixi" (2006) dərslikləri, M.İlyasovun "Didaktika" (2015) dərs vəsaitləri məhz bu illərin məhsuludur. Bununla bərabər son illərdə (2010-2020) kafedra əməkdaşlarından professorlar İ.İsayev, R.Hüseynzadə, dosentlər M.Həsənov, M.Nəzərov, K.Quliyeva, H.Cəfərov, S.Qurbanova, S.Orucova, Ş.Azadəliyeva, Ə.İsmayılxanova və başqaları pedaqogikanın müasir problemləri ilə bağlı 20-dək monoqrafiya, kitab, dərslik və dərs vəsaitləri nəşr etdirmişlər. Bunlardan "A.Səhhət və xalq maarifi", "Pedaqoji irsimizdən: M.V.Vidadidən H.K.Sanılıyadək" (prof.İ.İsayev), "Pedaqogika", I-II cild (prof.R.Hüseynzadə və F.İbrahimov), "Azərbaycanca-rusca pedaqoji-psixoloji terminlər

lüğəti" (dos.H.Cəfərov), "Təhsilin sosiomədəni problemləri" (dos.M.Nəzərov), "Üzeyir Hacıbəyovun pedaqoji görüşləri" (dos.S.Orucova), "Kurikulum bələdçisi" (dos.K.Quliyeva), "Təhsil tərbiyənin müasir problemləri" (dos.Ş.Azadəliyeva), "Tədrisdə pedaqoji drama" (dos.Ə.İsmayılxanova) və başqalarını göstərə bilərək.

2013-cü ildə uzun müddət Ümumi pedaqogika kafedrasına rəhbərlik etmiş akademik H.Əhmədovun təqaüdə çıxması ilə əlaqədar həmin ildən kafedraya rəhbərlik prof.İ.İsayevə tapşırılmışdır. Ötən illər ərzində prof.İ.İsayevin rəhbərliyi altında kafedranın tarixində müsbət ənənələrə istinadən pedaqogikanın aktual problemlərinə həsr edilmiş araşdırmalara diqqət artırılmış, kafedrada metodik işlər gücləndirmişdir. Xüsusilə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 24 oktyabr 2013-cü il tarixli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası" nda əsas strateji hədəflərdən biri kimi nəzərdə tutulan səriştəyə əsaslanan yeni məzmunun yaradılması tələbinə uyğun olaraq nəticəyönümlülük prinsipi əsasında ali təhsilin bakalavriat səviyyəsi üçün pedaqogika fənninin standartları və kurikulumunun hazırlanması təqdirəlayiqdir. (Pedaqogika fənn kurikulumu-prof.İ.İsayev, dos.M.Həsənov, dos.K.Quluyeva, dos.S.Qurbanova-2015). Həmçinin magistratura səviyyəsi üçün "Pedaqogika nəzəriyyəsi və tarixi", "Menecment" (təhsilin təşkili və idarə olunması) ixtisasları üzrə tədris planlarına müvafiq qısa müddətdə, bütün kafedra əməkdaşlarının müəllifliyi ilə 35-dən çox proqram hazırlanmış və Təhsil Nazirliyinin qrifi ilə çap olunmuşdur. Bu proqramlar bakalavriat və magistratura səviyyələri üzrə 2020-ci ildə təsdiq olunmuş tədris planına üyğun yenidən çap olunmuşdur.

Bunlara aşağıdakıları misal göstərmək olar:

Ümumi pedaqogika; Ali məktəb pedaqogikası; Azərbaycan məktəb və pedaqoji fikir tarixi; Təhsil siyasəti; Pedaqogikanın müasir problemləri; Təhsildə monitorinq və qiymətləndirmə; Vətəndaş tərbiyəsi və təhsili; Təhsildə kurikulumun idarəedilməsi; Müasir pedaqoji texnologiyalar; Etnopedaqogika; Pedaqogoka tarixi; Pedaqogikanın tarixi və metodologiyası; təhsil menecmentinin müasir problemləri; Pedaqoji tədqiqatların metodologiyası və metodları; təhsildə keyfiyyətin idarə edilməsi; Ümumi və pedaqoji valeologiya; Pedaqogikanın tədrisi metodikası; Təhsil və cəmiyyət; Peşəyönümü və sosial məşğulluğun əsasları; Pedaqoji ustalığın əsasları; Təhsil müəssisəsində innovasiyaların idarə edilməsi; Davamlı təhsil və insan inkişafı; Təhsildə liderlik; Ailə dəyərləri; təhsil sisteminin idarə edilməsi; Sosial pedaqogika; Təhsil fəlsəfəsi; Təhsil menecmentinin pedaqogika və psixologiyası; Педагогика (rus bölməsi üçün). Pedaqogika 1, Pedaqogika 2.

Hazırda kafedrada elmi-pedaqoji, metodiki işlər davam etdirilir.

Son dövrdə ADPU-nun rektoru professor Cəfər Cəfərovun rəhbərliyi ilə insan resurslarının müasirləşdirilməsi, müəllimlərin peşəkarlıq səviyyəsinin yüksəldilməsi, səriştəli təhsilverənlərin formalaşdırılması üzrə universitetimizdə həyata keçirilən islahatlar ümumi pedaqogika kafedrasının əməkdaşları tərəfindən də dəstəklənir. Belə ki, təhsildə kefiyyət təminatını yüksəltmək məqsədi ilə tədris prosesində innovativ təlim texnologiyalarının tətbiqinə, professor-müəllim heyətinin pedaqogikanın müasir problemləri ilə bağlı müxtəlif təlim kurslarında, elmi seminarlarda, beynəlxalq və respublika əhəmiyyətli konfranslarda iştirakına xüsusi diqqət yetirilir.

Ötən illər ərzində kafedranın elmi potensialının yüksəldilməsinə, doktorantura yolu ilə yüksək ixtisaslı elmi-pedaqoji kadrların hazırlanmasına diqqət artırılmışdır. 2018-ci ildə dos.M.Nəzərov fəlsəfə üzrə elmlər doktoru, dos.Ş.Azadəliyeva isə pedaqogika üzrə elmlər doktoru elmi dərəcəsi almaq üçün dissertasiya müdafiə etmişlər. 2022-ci ildə dos. M.Nəzərov fəlsəfə üzrə elmlər doktoru elmi dərəcəsi AAK-ın qərarı ilə təsdiq edilmişdir. Dos.K.Quliyeva və dos.E.Hüseynova elmlər doktoru proqramı üzrə tədqiqatlarını davam etdirirlər. Kafedra üzrə elmlər doktoru proqramı üzrə 4 doktorant ( Hüseynov Fərhad Cəfər oğlu-2017-2022, Həsənova Xalidə Sidqəli qızı-2017-2022, Əliyev Afiq Xanoğlan oğlu-2019-2024, Məmmədova Məhbubə Ərziman qızı-2020-2025), və **fəlsəfə doktoru proqramı üzrə** 2 doktorant: Əhmədova Gülnaz Xanlar qızı-2018-2022, Məmmədova Lalə Teymur qızı-2020-2024, 1 dissertant Əliyeva Dürdanə Vaqif qız-2018-2022) araşdırmalar aparırlar.

Kafedra əməkdaşları daim universitetimizin həyatında yaxından iştirak etmiş, müxtəlif vəzifələr daşımışlar. Bu ənənə indi də davam etdirilir. Pedaqogika kafedrasının yetirməsi Mehdi Mehdizadə 23 il Azərbaycanın Maarif Naziri olmuşdur. Prof.İ.İsayev 1986-1994-cü illərdə Dissertasiya Şurasının Elmi katibi, dekan müavini, dekan vəzifələrini icra etmiş, 2009-2016-cı illərdə Universitetimizdə fəaliyyət göstərən FD.02.061 indeksli Dissertasiya Şurasının üzvü olmuşdur. Dos.K.Quliyeva həmin Dissertasiya Şurasının elmi katibi, dos.H.Cəfərov Dissertasiya Şurasının üzvü, dos.S.Qurbanova həmin Şuranın nəzdində Elmi Seminarın katibi, Ş.Azadəliyeva və b/m G.Qocayeva isə seminarın üzvü kimi fəaliyyət göstərmişlər. Hazırda prof.İ.İsayev, dos.M.Həsənov, dos.K.Quliyeva və dos.S.Qurbanova Tarix və Coğrafiya fakültəsi Elmi Şurasının üzvüdürlər. Kafedranın yetirmələrindən əməkdar elm xadimi, professor F.Rüstəmov universitetdə fəaliyyət göstərən pedaqoji elmlər üzrə ixtisaslaşdırılmış Dissertasiya Şurasına həmsədrlik etmiş (2009-2016), hal-hazırda Pedaqoji fakültənin dekanıdır. Prof.M.İlyasov isə hazırda Məktəbəqədər təhsilin pedaqogikası kafedrasının müdiridir.

Hazırda Ümumi pedaqogika kafedrası əməkdaşlarının sayı 29 nəfərdir. Bunlardan 2 nəfəri professor (İ.İsayev, R.Hüseynzadə), 9 nəfəri dosent ( H.Cəfərov, M.Nəzərov, Ş.Azadəliyeva, K.Quliyeva, S.Orucova, Z.Vəlibəyova, E.Hüseynova, Ə.İsmayılxanova, Ş.Zülfüqarova,), 9 nəfəri baş müəllim (G.Qocayeva, P.Balayeva, Z.Qədirova, K.Quliyeva, S.Hacıyeva, F.Məmmədov, S.Sadıqova, C.Orucova, F.Xudiyeva), 6 nəfəri (N.Əhmədova, N.Hüseynova, S.Eylazova, A.Daşdəmirova, A.Əliyeva, H.Səfərova) müəllimdir. Həmçinin 1 nəfər baş laborant (A.Quliyeva) və 2 nəfər laborant (N.Həsənova) və (A.Əliyeva) çalışır.

Ümumi pedaqogika kafedrasının müdiri: prof İ.N.İsayev